# TƏŞƏKKÜR

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olmuşdur.

Azərbaycan ilə Türkiyə arasında dostluq qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilmişdir.

Azərbaycan - Türkiyə mədəni əlaqələrinin ən mühüm əhəmiyyət kəsb edən və nəticələri daha aydın görünən istiqamətlərindən biri də elm sahəsidir.

Bu baxımdan da akademik nəşriyyat sahəsində öz xüsusi yerini tutan Milli Təhsil Jurnalı (ULEDER) Azərbaycan Respublikasının 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazandığı qələbənin şərəfinə qeyd olunan “8 noyabr-Zəfər Günü”nə həsr olunmuş xüsusi buraxılışı üçün məqalə qəbulu elanı vermiş və təhsilin müxtəlif sahələrini əhatə edən 18 elmi məqaləni qəbul etmişdir.

“8 noyabr-Zəfər Günü”nə həsr olunmuş xüsusi buraxılış layihəsinin həyata keçirilməsində Milli Təhsil Jurnalının (ULEDER) baş redaktoru Hakan Ulum olmaqla jurnalın xüsusi buraxılışına məqalə göndərən müəlliflərə, məqalələri yoxlayan hakimlərə və jurnalın redaksiya heyətinin bütün üzvlərinə təşəkkür edirəm.

Günü-gündən güclənən, elm sahəsində sürətlə inkişaf edən və müntəzəm olaraq nəşr edilən Milli Təhsil Jurnalı (ULEDER) sizlərin dəyərli elmi araşdırmalarını oxuculara çatdırmaq üçün tezliklə yeni-yeni layihələrlərlə qarşınızda olacaq.

**Redaktor**

**Doç.Dr.Taleh XƏLİLOV**